# Birinci vitse-prezident Mehriban Əliyeva Olimpiadada gümüş medal qazanan Alfonso Dominqesi təbrik edib

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial şəbəkə hesablarında Alfonso Dominqesin Paris Olimpiadasında gümüş medal alması ilə bağlı paylaşım edib.**

AZƏRTAC paylaşımı təqdim edir:

"Boksçu - gümüş medal sahibi Alfonso Dominqesi səmimi-qəlbdən təbrik edirəm! Azərbaycanı Paris Yay Olimpiya Oyunlarında layiqincə təmsil edən idmançımıza güc, enerji, yeni qələbələr və nailiyyətlər arzulayıram!"




Azərbaycan.- 2024.- 11 avqust (№ 170).- S.1.